# Çamadan

*Hekayə*



■ Xanım AYDIN

**Həyətə girəndə talvarın altıyla sağ tərəflə, qırağı sınıq, üçkünc kərpiclərin düzüldüyü, onların arxasından yaşmaqlı şehli güllər boylanan dar cığırla kürsülü evimizə burulan yol var. Qapının girişində balaca dəhliz, ordan da otaqlara açılan xırda göz pəncərəli qapılar.**

Azca cırıldayan taxta döşəməylə irəliləyəndə mənim otağım lap başdakıdır. Hər şeyim ordadı, həm yataq, həm də dərslərimi çalışdığım otaqdı. Təzəlikcə atam qəhvəyi rəngli, dolabıma, çarpayıma yaraşan yazı masası da alıb. Dolabın alt gözündə ütülü, köynəklərim, yuxarı gözündə atamın "Vinştorqdan" aldığı rəngbərəng paltarlar səliqə ilə asılıb. Üstündə isə anam dəstəyində qırmızı lent bağlanmış çamadanları yığıb. Deyir cehizliyimdi. Həmişə də maraqlı olub ki, içində nə var. Yatanda gözlərimi zillərdim onlara. Onlarla bağlı qəribə-qəribə yuxular görərdim. Elə maraqlı gəlirdi ki mənə içindəkilər. Anam yır-yığış edəndə, çölə qaçıb oğru pişik kimi pəncərədən evə boylanardım. Uşaq ağlım kəsmirdi ki, elə dur ananın yanında bax da. Elə bilirdim nəsə gizli, sehrli əşyalar var orda. Onlarda mütləq möcüzə var. Divar rəflərində nə qədər kitab varsa hamısını oxumuşdum, hamısını. Uşaqlıqda bir də ən çox çöllükdə çiriş, qaratikan, yemlik, qozqurab, danayağının arasından qulançar yığmağı sevirdim. Nənəm ona mərəçüyüd deyir. Elə dadlıdı ki... Meqopolisdə dönər qoxuyan küçələrdə onun qoxusudur burnumun axtardığı.



O vaxtlar atam icra hakiminin müaviniydi. Müharibə gedəndə da elə işdə olurdu. Evə 2-3 saatlıq dəyirdi - o da ancaq əynini dəyişməyə, gözünün acısını alıb alaqaranlıqdan işə qayıtmağa. Hər axşam anam salırdı yerimə ki yat. Atam gələnə qədər gözümə acı bibər sürtülmüş kimi acışırdı, yata bilmirdim. Qaranlıq üstümə çökürdü, ağırlığını sinəmdə hiss edirdim. Maşın evə yaxınlaşıb dayananda, örtülən qapısının "takkk" səsini eşidincə, canıma dinclik gəlirdi. Elə bil o "takkk"la gözlərim cərəyandan ayrılırdı, sönürdüm. Atam evin kandarından girməmiş mışıl-mışıl yatırdım. Bir gecə yarı evimizin üstündən mərmilər şütüyürdü. Gözlərim yuvasından pırtlayıb çıxırdı azqala. Atəşfəşanlığa baxırdım sanki. O gün-bu gün sevmirəm atəşfəşanlıqları.

Bayramlarda şəhər alışıb-yanır. Bu gün yenə də vur-çatlasındı. Binanın nəmişlik iyi verən tağlı girişindən tələsik içəri atılıram. Pilləkanları iki-iki adlayıb qalxa-qalxa açarı çantamdan çıxarıram ki, qapıda yubanmayım. Evə girib qapını möhkəm kilidləyirəm. Hövlnak eyvana tərəf qaçıb qapısın, pəncərəsini kip örtürəm. Qalın pərdələri çəkirəm. İşıqları söndürüb, otaqdan otağa girirəm, qapılarını bağlayıram. Hövüllənib şəhadət barmağımın ucuyla qulaqlarımı qapayıram. Birazdan atəşfəşanlıq olacaq. Bu qurulan atəşəfəşanlıqlara baxmıram... Baxa bilmirəm... Qorxuram... Bu insanlar nəyə sevinirlər... Bu, müharibənin dəhşətli alov səsi, bu müharibənin yandırdığı gecəyə o qədər bənzəyir ki... Susdurun bu səsi, söndürün bu işıqları!!! Qaranlıq otağımda bircə fosforlu saatın məni sancan əqrəbləri görünür... Səssizlikdə dizlərimi altıma yığıb elə divara söykənikli yuxuya gedirəm... Çöllükdə qulançar toplamağa qaçıram, azad, bəxtəvər. Xırda güllü donum küləyin həzin mehində yellənirdi. Elə xoşbəxtəm, elə xoşbəxtəm yuxuda. Oyanmaq istəmirəm. Heç istəmirəm. Çirişlərin arasında qulançarlar mənə illərlə həsrətilə yolumu gözlər kimi boylanır. Əlimi qulançara uzadıram, gilizə dönür. Durduğum yerdən sıçradım o birinə toxundum o da, daha birinə toxundum, o da giliz oldu, o da, o biri də, hamısı da... Bütün güllər gilizə döndü... Əynimdəki donumun gülləri də gözümün qabağında bircə-bircə gilizə çevrildi. Atamın qəbri yuxarı qəbiristanlıqdan yelkənli qayıq kimi üzüb gəldi... Sinə daşını titrəyə-titrəyə barmaqlarımın ucuyla oxşadım. Cadar-cadar olmuşdu. Aralarından alov dilimləri dartınıb çıxırdı. Elə yuxudan ayılmaq istəyirəm, elə istəyirəm... Ayıla bilmirəm... Allaha yalvarıram ki ayılam, ayıla bilmirəm. Dönüb qaçmaq istəyirəm. Ayağım anamın cehizlik qırmızı lentli çamadanına ilişir, üzüqoyulu qaratikanların üstünə yıxılıram. Yetişmiş nar kimi partlayıb ağzı açılmışdı çamadanın. İçində atamın şəkli, "8 may" tarixində donub qalmış "Raketa" qol saatı, çəpəki xətli göy qalstuku, kənddəki evimizin açarı, mənim körpəlik paltarlarım, anamın köhnə kiril hərfləri ilə "xoşbəxt olun" yazılmış güzgüsü və bir də qırmızı lentini çoxdan itirdiyi xatirələri vardı...